


***Harada çalışmağından, hansı vəzifəni tutmağından asılı olmayaraq seçdiyin sənəti, könül verdiyin peşəni ürəkdən sevməli, üzləşdiyin problem və çətinliklərə baxmayaraq ona həmişə sadiq qalmalısan. Əks təqdirdə yerində sayar, heç bir uğur qazanıb fərqlənə bilməzsən.***

# Qutqaşınlının ev-muzeyi

Bu mənada, Qəbələ rayon tarix-diyarşünaslıq muzeyinin direktoru, Azərbaycanın əməkdar mədəniyyət işçisi Xalis Məmmədovun həyatı bütün həmkarları üçün əsl örnək olmalıdır. İstər 25 ildir ki, rəhbərlik etdiyi tarix-diyarşünaslıq muzeyi, istərsə də onun 2 filialı-İsmayıl bəy Qutqaşınlının ev-muzeyi və Şəhidlərin xatirə muzeyi Xalis müəllimin gərgin əməyinin məhsuludur. X.Məmmədov bununla işini bitmiş hesab etmir. İndi o, Vahid və Cahangir Qəhrəmanovların ev-muzeyinin, Umnisə, Yusif, Vahid və İbrahimbəy Musabəyovların xatirə muzeyinin, "Yaloylutəpə mədəniyyəti" muzeyinin təşkili üçün ciddi axtarışlar aparır, mədəniyyətimizin təbliği və inkişafı üçün əlindən gələni əsirgəmir.

Diqqətinizə verdiyimiz vəsait - yenicə işıq üzü görən "İsmayıl bəy Qutqaşınlının xatirə ev-muzeyi" kitabçası da məhz bu nəcib məqsədə xidmət edir. Burada verilmiş materialın əksəriyyəti jurnalımızda dərc olunduğundan bu haqda müfəssəl söhbət açmırıq. Böyük yazıçının yubileyi ərəfəsində (2006-cı ildə İ.Qutqaşınlının anadan olmasının 200 illiyi tamam olacaq) Xalis müəllim öz sözünü deyərək hamımızdan fərqləndi, tariximizin, ədəbiyyatımızın və mədəniyyətimizin təbliğatçısı olduğunu əməli işi ilə bir daha sübut etdi.

X.Məmmədovun mədəniyyətimizlə bağlı çoxsaylı məqalələri müxtəlif mətbuat orqanlarında işıq üzü görüb. Düşünürük ki, ilk kitabının da ayağı sayalı olacaq və Xalis müəllim oxucuları bu cür toplularla hələ çox sevindirəcək...

**Lalə Mustafayeva**